**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№374/8** **28 fevral 2025-ci il**

**"BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartına dair şərh barədə**

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına" (2021-2030-cu illər) uyğun olaraq və Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.2.4-cü "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartına dair şərhin hazırlanması" bəndinin icrası ilə əlaqədar Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış şərhin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartına dair şərh bəyənilsin (əlavə olunur).
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərində "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartının tətbiq edilməsini təmin etsinlər.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən 2025-ci ilin yanvar ayında auditor təşkilatları və sərbəst auditorlar üçün "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartının şərhinə dair seminarın keçirilməsi nəzərə alınsın.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu qərarın və "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartına dair şərhin mətnləri Auditorlar Palatasının internet səhifəsinin "Normativ hüquqi aktlar" bölməsinin "Beynəlxalq Audit Standartları" altbölməsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**